

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 180 (21.332)

15 sentyabr 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Sentyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Möhsün Pakayin ilə görüşmüşdür.

Səmimi görüşə görə minnətdarlıq edən Möhsün Pakayin ölkələrimiz arasındakı münasibətlərdən bəhs etmişdir. Səfir müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və bu zaman imzalanan sənədlərin əlaqələrin inkişafına töhfə verdiyini vurğulamışdır.

Ali Məclisin Sədri Azərbaycan-İran ikitərəfli əlaqələrinin uğurlu inkişafından danışmış, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın qonşu vilayətləri arasındakı münasibətlərin mehriban qonşuluq prinsiplərinə əsaslandığını bildirmişdir. İranın yaxın vilayətlərinə səfərlərini xatırladan Ali Məclisin Sədri münasibətlərin bundan sonra da inkişaf edəcəyinə inamını ifadə etmişdir.

Söhbət zamanı əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olunmuş, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə yeni yanğınsöndürən avtomobillər və səfərbərlik ehtiyatları verilmişdir





Muxtar respublikada əhalinin və ərazilərin fövqəladə hallardan qorunması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazası ilbəil gücləndirilir, fövqəladə hadisələr zamanı şəxsi heyətin çevik və operativ hərəkətinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə yeni yanğınsöndürən avtomobillər və səfərbərlik ehtiyatları təqdim olunmuşdur.

Sentyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayına gəlmişlər.

Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri məlumat vermişdir ki, Almaniya istehsalı olan "İVECO MAGİRUS" markalı yanğınsöndürən və xilasedici-yanğınsöndürən avtomobillər yüksək texniki xüsusiyyətlərə malikdirlər. 6 nəfər heyətlə hərəkət edən yanğınsöndürən avtomobil 9 ton su və 1 ton köpükyaradan maye, xilasedici-yanğınsöndürən avtomobil isə 3 ton su və 500 kiloqram köpükyaradan maye tutur. Avtomobillərin hər biri 3 siyirtməli nərdivan, mühərrikli tüstüqovucu, 4 projektor, generator, istiyə davamlı 4 dəst xilasetmə paltarı, eləcə də digər yanğından mühafizə vasitələri ilə təchiz olunmuşdur. Xüsusi kəsici aparatla təchiz olunmuş xilasedici-yanğınsöndürən avtomobil həm də yol-nəqliyyat hadisələri zamanı istifadə olunacaqdır.

Səfərbərlik ehtiyatlarına baxış zamanı bildirilmişdir ki, hazırda Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının bazasında kifayət qədər səfərbərlik ehtiyatı yaradılmışdır. Yeni gətirilən 100 dəst çadır, 2 generator, 12 nasos və digər məişət avadanlıqları da baş verə biləcək hər hansı fövqəladə hadisə zamanı insanların yaşayışının normal təşkilinə imkan verəcəkdir. Asanlıqla daşınan və qurulan çadırların hər biri 6 nəfərlik ailənin yaşaması üçün nəzərdə tutulmuşdur.

Tədbirdə fövqəladə hallara hazırlığın vəziyyətinin yüksəldilməsinin davam etdirilməsinin vacibliyi bildirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Səhiyyə işçiləri üçün əmək yarmarkası keçirilib

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə səhiyyə işçiləri üçün əmək yarmarkası keçirib.*

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov tədbiri giriş sözü ilə açaraq səhiyyə sistemində aparılan quruculuq işlərindən, həyata keçirilən islahatlardan danışıb. Qeyd olunub ki, son illər səhiyyənin inkişafında, yeni strukturlu müəssisələrin yaradılmasında, tibbi xidmətin yüksək səviyyədə aparılmasında, tibbi kadrların hazırlanmasında müəyyən uğurlar əldə edilib. Səhiyyədə gedən islahatlar çərçivəsində əhaliyə göstərilən tibbi xidmətin gücləndirilməsi məqsədilə şəhər və rayonlarda müasir tibb avadanlıqları və texnika ilə təchiz edilmiş 200-dən çox yeni səhiyyə müəssisəsi istifadəyə verilib, fəaliyyət göstərən tibb müəssisələrində yenidənqurma və əsaslı təmir işləri aparılıb. Belə bir şəraitdə səhiyyə müəssisələrinin tibbi kadr təminatı xüsusi əhəmiyyət kəsb edir və keçirilən ənənəvi səhiyyə yarmarkaları kadr probleminin həllində, eləcə də qarşıya qoyulmuş məqsədlərə nail olmaqda tam istiqamətləndirici və tənzimləyici xarakter daşıyır.

Niyazi Novruzov kənd yerlərindəki səhiyyə müəssisələrinə tibbi kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri ilə əlaqədar görülən işlərdən bəhs edib, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, bu illərdə səhiyyə sahəsində qarşıya qoyulan məqsədlərə nail olunmasında işlə təmin olunacaq gənc kadrların üzərinə düşən vəzifələr barədə məlumat verib, onlara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov bildirib ki, vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikada daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Buna görə də vaxtaşırı olaraq əmək yarmarkalarının keçirilməsi əməkqabiliyyətli əhalinin işlə təmin edilməsində mühüm rol oynayır. İşaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən əmək yarmarkaları indi işaxtaran vətəndaşların ən çox üz tutduqları ünvandır.

Naxçıvan Dövlət Universitetinin pediatriya ixtisası üzrə məzunu, işaxtaran İlkay Həşimli gənc kadrların işlə təminatında əmək yarmarkalarının əhəmiyyətindən danışıb, işəgötürənlər tərəfindən yaradılan şəffaf şəraitə görə öz minnətdarlığını bildirib.

Sonra işaxtaran ali və orta ixtisas təhsilli məzunlar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin birinci mərtəbəsində təşkil edilmiş əmək yarmarkasında olublar. Yarmarkada həkimlər üçün 487, orta tibb işçiləri üçün isə 174 olmaqla, bütövlükdə, 661 vakant yer təklif edilib, onları maraqlandıran suallar cavablandırılıb.

Gün ərzində davam edən əmək yarmarkasında 21 nəfər işə göndəriş alıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Beynəlxalq Hava Limanının fəaliyyəti genişləndirilir

Naxçıvan Beynəlxalq Hava Limanında avqust ayında da sərnişinlərə nümunəvi xidmət göstərilmişdir. Bu dövrdə yerli hava xətti ilə 35 min 401 sərnişin, 534 min 695 kiloqram baqaj, 16 min 526 kiloqram yük və 1238 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətləri üzrə də uçuşlar fasiləsiz təşkil olunmuş, Naxçıvan-Moskva reysi ilə 578 sərnişin, 7 min 364 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 723 sərnişin və 7 min 574 kiloqram baqaj daşınmışdır.

Texniki heyət hava gəmilərinə mütəmadi olaraq baxış keçirmiş, uçuşqabağı bütün təlimatlar yerinə yetirilmiş, təhlükəsizlik təmin olunmuşdur. Həmçinin uçuş-enmə zolağı və perronda təmir işləri görülmüş, xidməti avtomobillər texniki baxışdan keçirilərək nasazlıqlar aradan qaldırılmışdır.

Aerovağzal binasında aparılan əsaslı təmir işləri avqust ayında da davam etdirilmişdir. Hava limanında, eləcə də Ordubad, Şərur və Naxçıvan şəhər aviakassalarında bütün elektron cihazlara gündəlik nəzarət olunmuş, bilet satışı və qeydiyyat əməliyyatlarının fasiləsiz işi təmin edilmişdir.

Ötən ay elektrik, işıqlandırma, yanğın təhlükəsizliyi və qəza-xilasetmə xidmətləri də işini günün tələblərinə uyğun qurmuş, texniki heyətlə maarifləndirici taktiki məşğələlər aparılmışdır. Şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması diqqət mərkəzində saxlanılmış, avqustun 28-də təhlükəsizlik xidməti əməkdaşları ilə növbəti aylıq iclas keçirilmişdir.

**Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti**

## 15 sentyabr Bilik Günüdür

# Təhsilə, elmə qayğı ölkənin gələcəyinə qayğıdır

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixli Fərmanı ilə hər il sentyabrın 15-i ölkəmizdə Bilik Günü kimi qeyd olunur.***

Xalqımız hər zaman elm və təhsilin inkişafına böyük önəm vermişdir. Müdriklərimiz, ziyalılarımız cəmiyyətin inkişafını təhsildə görmüş, insanların savadlanması, gənclərin elm, bilik öyrənməsi qayğısına qalmışlar. Azərbaycanda Bilik Gününün hər il böyük uğurlarla qarşılanması, yeni dərs ilinə bayram əhval-ruhiyyəsi ilə başlanması da təhsilin cəmiyyət həyatında mühüm yer tutmasının nəticəsidir.

Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində müəyyənləşdirdiyi təhsil strategiyası ölkəmizdə bu sahənin davamlı inkişafının əsasını qoymuşdur. ***“Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır”***, – deyən ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqillik illərində bu sahədə daha geniş islahatlar həyata keçirilmiş, Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoymuşdur. Bu gün də ulu öndərin siyasi xəttini bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində təhsilin inkişafı dövlət siyasətinin əsas prioritet istiqaməti kimi müəyyənləşdirilmiş, kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Naxçıvan Muxtar Respublikasında da ulu öndərin müəllifi olduğu təhsil strategiyası uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində son illər muxtar respublikada müasir təhsil infrastrukturu yaradılmışdır. Son 10 ildə muxtar respublikada 66 min 736 şagird yerlik 165 məktəb binasının tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilməsi təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlərin daha bir ifadəsidir.

Hər il olduğu kimi, bu il də muxtar respublikanın hər yerində geniş vüsət alan quruculuq və abadlıq işlərinin önündə təhsil müəssisələrinin tikintisi dayanır. Belə ki, 2015-ci ilin birinci yarısında Şərur rayonunda Kürkənd, Cəlilkənd, Babək rayonunda Qoşadizə, Ordubad rayonunda Ordubad şəhər 3 nömrəli tam orta məktəbləri üçün binalar şagird və müəllimlərin, Kəngərli Rayon Təhsil Şöbəsi üçün inzibati bina isə təhsil işçilərinin istifadəsinə verilib. Hazırda muxtar respublikada 2 orta ixtisas, 1 peşə, 16 orta ümumtəhsil məktəbi və yeni yaradılmış Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün müasir binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir.

*Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəb*



*Şahbuz rayon Biçənək kənd tam orta məktəbi*



*Ordubad şəhər 3 nömrəli tam orta məktəbi*



Muxtar respublikada təhsil müəssisələrinin müasir tədris vasitələri və informasiya texnologiyaları ilə təminatına xüsusi diqqət yetirilir. Artıq məktəblər ən müasir informasiya-kommunikasiya texnologiyaları və zəngin kitabxana fondu ilə təchiz olunmuşdur. Bu günədək ümumtəhsil məktəblərində 600-ə yaxın elektron lövhə və 3700 dəst kompüter quraşdırılmış, onların 84 faizi internet şəbəkəsinə qoşulmuşdur. Muxtar respublikanın ümumtəhsil məktəblərinə 627 min 643 nüsxə latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat və 2 milyon 83 min 28 nüsxə dərslik, 16 min 720 xəritə, müxtəlif fənlərə dair 86 min 750 plakat, ayrı-ayrı fənlərin tədrisi üçün 2 min 140 ədəd elektron tədris vəsaiti verilmişdir.

Müasir maddi-texniki bazanın formalaşdırılması təhsildə mütərəqqi üsulların tətbiqinə geniş imkanlar





açmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası artıq öz bəhrəsini verir. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli-mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”na uyğun olaraq, xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumtəhsil məktəblərinə cəlbi diqqət mərkəzində saxlanılır. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması da bu tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət kəsb edir. Məhz bununla muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası və onların təhsil hüquqları təmin edilmişdir. Bu gün mərkəzdə 18 hərəkət qabiliyyəti məhdud şagird təhsil alır, onların təhsili ilə 4 müəllim məşğul olur.

Muxtar respublikada təhsil müəssisələrinin pedaqoji kadrlarla təminatı sahəsində də ardıcıl tədbirlər həyata keçirilir. Hər il təhsil yarmarkalarının təşkil edilməsi bu istiqamətdə atılan ən mühüm addımlardandır. Bu il sentyabrın 4-də keçirilən növbəti təhsil yarmarkasında göndəriş alan 136 gənc kadr ümumtəhsil məktəblərində pedaqoji fəaliyyətə başlayacaqdır. Bütün bunlar məktəblərin pedaqoji kadr təminatının yerinə yetirilməsi ilə yanaşı, həm də gənclərin məşğulluğunun təmin olunmasına mühüm töhfə verir.

Bu gün Naxçıvanda qabaqcıl təhsil mühiti formalaşdırılmış, şagirdlərin təhsilə marağı artmışdır. Bütün bunların da nəticəsidir ki, ali və orta ixtisas məktəblərinə qəbulun nəticələri ilbəil yüksəlir. Bu il muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən 2638 gənc ali məktəblərə qəbul üçün sənəd vermiş, onlardan 1582-si ali məktəblərə qəbul olunmuşdur. Tələbə adını qazananların 313-ü 500-700 arası bal toplamışdır. Ötən il ümumi orta təhsil bazasından orta ixtisas məktəblərinə sənəd verən məzunlardan 255-i tələbə adını qazanmışdırsa, bu il bu göstərici 310-a çatmışdır.

Məktəblərdə şagirdlərin elmi biliklərlə yanaşı, sağlam və yüksək vətənpərvərlik ruhunda böyüdülməsinə də xüsusi qayğı ilə yanaşılır, hərbi hazırlıq və idman dərslərinə böyük əhəmiyyət verilir. Bunun nəticəsidir ki, son illər gənclər arasında hərbi təhsilə maraq da xeyli artmışdır. 2015-ci ildə muxtar respublikanın ümumtəhsil məktəblərindən 251 şagird Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur. Həmçinin Hərbi Liseyin məzunlarından 36-sı xüsusi təyinatlı ali hərbi məktəblərə, 203-ü isə ölkənin müxtəlif ali hərbi məktəblərinə qəbul olunub.

Naxçıvanda ali təhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi də həyata keçirilən təhsil islahatlarının tərkib hissəsidir. Yeni tədris korpuslarının tikilməsi, müasir informasiya texnologiyalarının tətbiqi, dünya təhsil sisteminə inteqrasiya ali təhsil sahəsində uğurlu nəticələrin qazanılmasına, tələbələrin ixtisaslı kadr kimi yetişməsinə imkan verir. Bu il “Naxçıvan” Universiteti üçün müasir tədris kompleksinin inşa olunması da bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənclərə müraciət edərək demişdir: ***“Bu gün kitab oxumaq, yaxşı təhsil almaq işin yalnız bir tərəfidir. Əsas məsələ özünü yüksək ixtisaslı kadr kimi hazırlamaqdır. Ona görə də seçdiyiniz ixtisasa dərindən yiyələnməli, kamil mütəxəssis kimi yetişməlisiniz”.*** Ali Məclis Sədrinin bu tövsiyələri tələbə-gənclərin gələcək fəaliyyətinin müəyyənləşdirilməsində, onların layiqli vətəndaş, yüksək ixtisaslı kadr kimi yetişməsində mühüm əhəmiyyətə malikdir.

*Azərbaycanda təhsilin inkişafı ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin ən uğurlu nəticələrindəndir. Təhsil sahəsində əldə olunan uğurlar isə ölkəmizin daha parlaq gələcəyinin təminatıdır.*

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikamızdakı muzeylər ziyarət olunur

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına uyğun olaraq, muxtar respublikada fəaliyyət göstərən muzeylərə kollektiv ziyarətlər davam etdirilir.***





Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin və struktur qurumlarının kollektivləri Hüseyn Cavidin ev-muzeyində, Dövlət Sosial Müdafiə Fondunun və Mərkəzi Seçki Komissiyasının kollektivləri Xatirə Muzeyində olublar.

Xatirə Muzeyinin ziyarətçiləri Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar ilə tanış olublar. Eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi ziyarətçilərin muzeylə daha yaxından tanış olmasına imkan yaradır.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Dövlət Statistika Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları isə Cəlil Məmmədquluzadənin ev-muzeyini ziyarət ediblər.

Həmin gün Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, “Şərq qapısı” qəzeti redaksiyasının əməkdaşları Bəhruz Kəngərli Muzeyində olublar. Muzeyin ziyarətçilərinə məlumat verilib ki, görkəmli rəssam Bəhruz Kəngərli Azərbaycan realist rəssamlığının banisi və əvəzolunmaz nümayəndəsi, istedadlı fırça ustası kimi xatırlanır. Onun çəkdiyi qiymətli rəsm əsərləri Azərbaycan incəsənətinə yeni iz gətirərək realist rəssamlığın əsasını qoyub. Rəssam ömrü boyu doğma Vətəninin gözəlliklərini öz əsərlərində tərənnüm edib. Onun kömür, karandaş, akvarel və yağlı boya ilə müxtəlif janrlarda yaratdığı 500-ə yaxın əsəri indi də incəsənət muzeylərinin dəyərli eksponatları sırasındadır. Bəhruz Kəngərli bütün ömrü boyu Vətəninə, xalqına bağlı insan olub. Buna görə idi ki, bütün varlığı ilə sevdiyi Vətəninin gözəl guşələrini məhz öz sehrli fırçası ilə kağıza köçürüb, rənglərdən yaranan bir sənət dünyası yaradıb. Sənətkarın bütün qəlbi ilə sevdiyi Naxçıvan onun əsərlərində xüsusi məhəbbətlə təsvir olunub.

Adıçəkilən muzeylərdə olarkən ziyarətçilərin bir neçəsi ilə həmsöhbət olduq. Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Rahib Kərimov, Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin əməkdaşı Elnur Əsgərov, Mərkəzi Seçki Komissiyasının əməkdaşı Əli Qədimov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Sahir Rüstəmov və başqaları ilə söhbət zamanı belə bir fikir ifadə olundu ki, qədim diyarımızın zəngin tarixini, mədəniyyətinin inkişaf yolunu əks etdirən muzeylərimiz mədəni irsimizin qorunması və təbliğində, gənc nəslin bədii və estetik tərbiyəsinin, elmi dünyagörüşünün zənginləşməsində böyük əhəmiyyətə malikdir. Bu baxımdan muxtar respublika rəhbərinin “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamı böyük minnətdarlıqla qarşılanıb, muzeylərin ziyarət edilməsi artıq ənənəyə çevrilib. Bu qəbildən ziyarətlər zamanı əməkdaşlarda milli-mənəvi irsimizə məhəbbət hissləri güclənir, onlar zəngin tarixi keçmişimizlə yaxından tanış olurlar.

**Səbuhi HÜSEYNOV**

Dövlət proqramı necə icra olunur?

# Naxçıvan Muxtar Respublikasında meyvəçilik və tərəvəzçilik intensiv inkişaf edir

*Naxçıvan özünün sürətli inkişaf dövrünü yaşayır. Son illər muxtar respublikanın sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq bir sıra mühüm qərarlar qəbul edilmişdir. Muxtar respublikada davamlı xarakter alan inkişaf və tərəqqi regionda müxtəlif sahələrin inkişafını sürətləndirmişdir və bu sahələr içərisində kənd təsərrüfatı aparıcı mövqeyə malikdir. Kənd təsərrüfatının iqtisadi səmərəliliyinin yüksəldilməsində üzümçülük, meyvəçilik və tərəvəzçilik mühüm əhəmiyyət daşıyır.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" əhalinin artan tələbatına uyğun olaraq, meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişafı üçün qəbul edilmiş mühüm dövlət sənədidir. Həmin proqramda muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını stimullaşdırmaq, 2015-ci ildə ümumi meyvə istehsalını 45 min tona çatdırmaq bir vəzifə olaraq qarşıya qoyulmuşdur. Bu məqsədə nail olunması üçün intensiv texnologiyaya əsaslanan yüksəkkeyfiyyətli və məhsuldar sortlardan ibarət meyvə bağlarının salınması, unudulmuş aborigen sortların bərpası, tərəvəz əkini sahələrinin genişləndirilməsi və artımına nail olunması, yabanı meyvə-tərəvəz bitkilərindən istifadə imkanlarının müəyyənləşdirilməsi, meyvə və tərəvəzçiliyin genişləndirilməsi zamanı müasir texnologiyanın tətbiqi, əkin sahələrinin gübrələrlə, xəstəliklərə və ziyanvericilərə qarşı mübarizəsi üçün kimyəvi preparatlarla dolğun təmin edilməsi, mövsümlərarası dövrlərdə əhalinin fasiləsiz giləmeyvə, meyvə və tərəvəz məhsulları ilə təmin edilməsi üçün anbar şəbəkələrinin, saxlama və soyuducu kameralarının yaradılması, daxili bazarın qorunması, meyvə-tərəvəz məhsullarının tədricən idxalının azaldılması və ixracının təşkili, yeni müasir istehsal müəssisələrinin yaradılması kimi mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın muxtar respublikada uğurla həyata keçirilməsi son illər kənd təsərrüfatı sahəsində çox böyük uğurların əldə edilməsinə şərait yaratmışdır.

Toxumçuluğun inkişaf etdirilməsi aqrar sektorun qarşısında duran vacib məsələlərdən biri olmuşdur. Yüksək məhsuldarlığın əldə edilməsi, yüksək reproduksiyalı, məhsuldar toxum təminatının yaxşılaşdırılması böyük əhəmiyyət daşıyır. Buna görə də toxumçuluq təsərrüfatlarının müasir tələblər səviyyəsində inkişafı daim dəstəklənmişdir. Bu istiqamətdə Naxçıvan şəhərində ümumi tutumu 30 min ton olan "Bərəkət" Toxumçuluq Təsərrüfatı üçün yeni kompleksin inşası davam etdirilir.

Proqramda xarici ölkələrdən daha məhsuldar meyvə tinglərinin gətirilməsi, yerlərdə yeni tingçilik təsərrüfatlarının, yüksək reproduksiyalı və məhsuldar toxumların əldə etmək məqsədilə təchizat bazarlarının yaradılması istiqamətində əməli işlər aparılması nəzərdə tutulmuşdur. Bu istiqamətdə 2012-2014-cü illər ərzində muxtar respublika üzrə 587,4 hektar ərazidə 541063 meyvə tingi əkilmişdir.

Aqrar sektorda son illər ərzində həyata keçirilmiş məqsədyönlü tədbirlər kənd təsərrüfatı məhsullarının istehsalının dinamik inkişafına imkan yaratmaqla kənd təsərrüfatı bitkilərinin əkin strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Dövlət proqramına uyğun olaraq, muxtar respublikada yeni meyvə bağları salınmışdır. Barverən meyvə bağlarından 24328 ton məhsul yığılmışdır ki, bu da 1 avqust 2014-cü illə müqayisədə 1,3 faiz çoxdur.

Meyvəçiliyin və tərəvəzçiliyin iqtisadi əhəmiyyəti onun yüksək gəlirli təsərrüfat sahəsi olması ilə müəyyənləşdirilir. Dövlət proqramına uyğun olaraq, muxtar respublikada orta dağlıq və dağlıq, xüsusilə səhralaşmaya meyilli ərazilərdə cəviz, badam, ərik, alma və armud kimi meyvə sortlarından ibarət yeni meyvə bağlarının salınmasının planlaşdırılması kəndlərdə əhalinin məşğulluğunun yüksəldilməsinə səbəb olmuşdur. Bu istiqamətdə meyvə bağları salan sahibkarlara güzəştli kreditlər verilir, yaranan çətinliklərdə əməli köməkliklər göstərilir. Bu qayğının nəticəsidir ki, ötən dövr ərzində 7-si üzümçülük olmaqla, ümumilikdə, 59 bağçılıq təsərrüfatının yaradılmasına 1 milyon 297 min 200 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Toplanmış məhsulun satış bazarlarına yüksək keyfiyyətlə çatdırılması, bütün mövsümlərdə bazarların meyvə məhsulları ilə təmin edilməsi üçün saxlama və soyuducu anbarların yaradılması mühüm məhələni təşkil edir. Son illər ümumi tutumu 12.610 ton olan 21 soyuducu anbarın tikilib istifadəyə verilməsinin kənd təsərrüfatı məhsullarının saxlanılmasında müstəsna əhəmiyyəti olmuşdur.

Əhalinin tələbatının keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə ödənilməsi məqsədilə muxtar respublika ərazisində fəaliyyət göstərən meyvə-tərəvəz məhsullarının saxlanması anbarlarına 1 iyul 2015-ci il tarixdən ötən dövr ərzində 650 tondan çox məhsul tədarük edilmişdir.

Muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunmasında istixana kompleksləri də mühüm əhəmiyyət kəsb edir. Əhalinin qış aylarında faraş tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün müasir istixana komplekslərinin qurulması və mövcud sahələrin genişləndirilməsi istiqamətində sahibkarlarla iş aparılmış, 2012-ci ildən ötən dövr ərzində 4-ü limonçuluq olmaqla, ümumilikdə, 13 istixana kompleksinin qurulmasına 3 milyon 936 min 500 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Artıq muxtar respublikada fəaliyyət göstərən istixana komplekslərinin ümumi sahəsi 100 min kvadratmetri ötmüşdür.

Muxtar respublikada meyvə-tərəvəz konserv məhsullarının keyfiyyətinin dünya standartlarına çatdırılması istiqamətində müvafiq işlərin həyata keçirilməsi müəyyənləşdirilmişdir. Bu məqsədlə meyvə və tərəvəz məhsullarının konservləşdirilməsi sahəsində araşdırmalar aparılmış, Türkiyə mənşəli istehsal gücü saatda 1 ton xammal olan konservləşdirmə qarğıdalı, Çin mənşəli istehsal gücü saatda 1 ton xammal olan limon suyu, Rusiya mənşəli istehsal gücü gündə 500 litr olan kompot, Türkiyə mənşəli istehsal gücü gündə 500 kiloqram olan üzüm və tut doşabı, Rusiya mənşəli istehsal gücü saatda 500 ədəd tara olan göbələk konservi istehsalı sahəsi üzrə hazırlanmış layihələrin sahibkarlara təqdimatı keçirilmişdir.

Daxili bazarda idxal məhsullarının keyfiyyətinə nəzarətin gücləndirilməsi, üzərində istehsal və son istifadə müddəti, istehsalçısı və məhsulun tərkibi haqqında başa düşülə bilən dildə dolğun məlumat olmayan məhsulların gətirilmə istiqamətlərinin müəyyənləşdirilməsi və qarşısının alınması, gömrük-keçid məntəqələrində idxal edilən tez xarab olan ərzaq məhsullarının daşınması və saxlanması zamanı normativ-texniki sənədlərin tələblərinə uyğunluğuna nəzarətin həyata keçirilməsi məqsədilə idxal olunan 2810 halda meyvə-tərəvəz məhsullarından və 94 halda konservləşdirilmiş meyvə-tərəvəz turşularından orta nümunələr götürülərək "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin beynəlxalq akkreditasiyadan keçirilmiş laboratoriyasında analiz edilmişdir.

Meyvə-tərəvəz və konserv məhsullarının keyfiyyətinin standartlara uyğunluğunun nəzarətdə saxlanılması məqsədilə 2012-2014-cü illər ərzində daxili bazarda satışı həyata keçirilən 2067 halda meyvə-tərəvəz məhsullarında nitrat göstəricisi yoxlanılmış və məhsulların müəyyən olunmuş normalardan kənarlaşmaları olmadığı müəyyən edilmişdir.

"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikada aqrar sektorun müasir tələblər səviyyəsində dinamik inkişafını təmin etməklə, əhalinin meyvə-tərəvəz məhsulları ilə daha yaxşı təchiz olunmasına, nəticədə, kənd adamlarının maddi-rifah halının daha da yüksəldilməsinə müsbət təsir göstərmişdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

İstehsal müəssisələri

# "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi"ndə istehsal olunan məhsullar Gürcüstan bazarına çıxarılır

*Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti son illər yaradılan sənaye müəssisələrindəndir. Sənaye şəhərciyində inzibati bina, istehsal sexləri, yeməkxana, satış şöbəsi üçün bina, xammal və hazır məhsulun saxlanılması məqsədilə anbar tikilib istifadəyə verilib.*



Müəssisədə keyfiyyətli müxtəlif meyvə şirələri, meyvə quruları, şərab, halva istehsal olunur. Müəssisənin illik istehsal gücü 120 dekalitr meyvə şirələri və şərab, 180 ton şirniyyat məhsullarıdır. Burada İtaliya və Almaniya istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Naxçıvanda yetişdirilən meyvələrdən tam gigiyenik qaydada yüksəkkeyfiyyətli müxtəlif həcm və çeşidlərdə alma, ərik, şaftalı, gilənar, üzüm və qarışıq tərkibli nektarlar istehsal edilir. Həmin məhsullar "Badamlı" əmtəə nişanı ilə satışa çıxarılır.

Diyarımızın ən qədim əkinçilik sahələrindən biri olan üzümçülüyün inkişaf perspektivləri nəzərə alınaraq qurulan şərab emalı sahəsində istehsal prosesi tam avtomatlaşdırılıb. Müəssisədə istehsal olunan 4 çeşiddə kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları "Mirvari" və "Qızıl damla" adları ilə satışa çıxarılır. Cəmiyyət həmçinin 3 çeşiddə müxtəlif çəki və formalarda küncüdlü halva istehsalı ilə də məşğuldur. Əsasən, sadə, kakaolu və qarışıq növdə istehsal olunan halva yüksək keyfiyyətə malikdir. Çərəzqovurma və paketləmə sahəsində də texnoloji proseslərə ciddi əməl olunur, günəbaxan, qabaq, noxud, püstə və qarışıq çeşidli çərəzlər təmizlənib qovrularaq 90 və 200 qramlıq paketlərdə qablaşdırılır.

Müəssisədə 2011-ci ilin iyul ayından yeni meyvə nektarlarının karton taralara qablaşdırılması layihəsinin həyata keçirilməsinə başlanılıb. Bunun üçün yeni bina inşa olunub və burada İsveçin "Tetra Pak" firmasının istehsal gücü saatda 7 ton 1 litrlik və 1600 litr 200 millilitrlik taralar olan müasir texnoloji avadanlıqları quraşdırılıb. 2012-ci ilin mart ayından istehsala başlanılıb. Nəfis tərtibatla bəzədilmiş karton taraların üzərində Azərbaycan, ingilis və rus dillərində məhsulun istehsal və son istifadə tarixi, tərkibi, istifadə qaydası, saxlanma şəraiti, standart göstəriciləri və mənşəyi haqqında məlumatlar göstərilir.

Daxili bazarın tələbatına uyğun yeni çeşidlərdə yerli ərzaq məhsullarının istehsalı da diqqət yetirilən sahələrdən olub, 2013-cü ildən tahin (küncüd yağı) və bəkməz istehsalına başlanılıb. Onu da qeyd edək ki, yerli xammaldan hazırlanan məhsullar yüksəkkeyfiyyətli qida məhsulu olmaqla yanaşı, həm də müalicəvi əhəmiyyətə malikdir.

İstehsal olunan məhsullar ölkəmizin digər regionlarında da satışa çıxarılır, xarici ölkələrə ixrac olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, müəssisədə möhkəm baza yaradılıb, bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin və ərzaq təhlükəsizliyi tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 9001 və İSO 22000 sertifikatlarına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb. Məlumat üçün qeyd edək ki, ötən ildən "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal edilən meyvə nektarları Gürcüstan bazarına çıxarılır.

Müəssisədə istehsal olunan məhsulların xammalı, əsasən, yerli sahibkarlardan alınır ki, bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməmələrinə öz müsbət təsirini göstərir. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilir. Meyvə bağlarında yetişdirilən məhsulların tədarük olunması diqqət mərkəzində saxlanılır. Ayrı-ayrı rayonlardan gətirilən məhsullar vaxtında qəbul edilir. Müəssisədə olarkən məhsullarını təhvil verən sahibkarlar Namiq Əzizov, Cavanşir Vəliyev, Qabil Qəhrəmanov və Natiq Zeynalovla həmsöhbət olduq.

Natiq Zeynalovun dediklərindən: – Uzun illərdir, bağçılıqla məşğul oluram. Yetişdirdiyim məhsulun şəxsi istifadədən artıq hissəsini bazara çıxarıram. Amma məhsul eyni vaxtda yetişdiyindən az bir müddətdə bazarda satıb qurtara bilmir, minbir əziyyətlə ərsəyə gətirdiyim meyvə bağında yetişdirdiyim məhsulun, demək olar ki, yarıdan çoxu zay olurdu. Son illər muxtar respublikamızda tikilib istifadəyə verilən soyuducu anbarlar, emal və sənaye müəssisələri bu problemi aradan qaldırıb. Yetişdirilən məhsulun daimi alıcısı olduğuna inanıb daha səylə çalışır, daha çox məhsul əldə etmək üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstəririk. Bu həm də emal və sənaye müəssisələrinin yüksəkkeyfiyyətli yerli xammalla təchiz edilməsinə əlverişli şərait yaradır. Yerli məhsullardan hazırlanan meyvə nektarları isə yüksək keyfiyyəti ilə seçilir, bazarda özünəməxsus yer tutur. Bu da həm istehsalçı, həm də istehlakçı üçün sərfəlidir. Söhbətimizə qoşulan digər sahibkarlar da yaradılan şəraitə görə minnətdarlıqlarını bildirdilər.

**Kərəm HƏSƏNOV**

# Payız-qış mövsümündə abunəçilər dayanıqlı mavi yanacaqla təmin olunacaqlar

"Naxçıvanqaz" İstehsalat Birliyi muxtar respublikanın bütün yaşayış məntəqələrinin və istehsalat sahələrinin payız-qış mövsümündə fasiləsiz mavi yanacaqla təmin olunması istiqamətində ardıcıl tədbirlər görür. Bu məqsədlə avqust ayında da qarşıda duran vəzifələr uğurla yerinə yetirilmişdir. Ötən ay 223 yeni obyekt qazlaşdırılmışdır ki, onlardan 218-i əhali abonentləridir. Yeni qaz xətlərinin çəkilişi, korroziyaya uğramış boruların dəyişdirilməsi, habelə tikinti, yenidənqurma və abadlaşdırma tədbirləri ilə əlaqədar yerdəyişmə işlərinin aparılması zamanı, ümumilikdə, 19 min 962 paqonometr müxtəlifölçülü borulardan istifadə edilmişdir.

Qaz nəqlinin normalara uyğun, təhlükəsiz və fasiləsiz yerinə yetirilməsi üçün bütün avtomat qaz paylayıcı stansiyalarda təzyiq tənzimləyicilərinə, ölçü qovşaqlarına, magistral, daşıyıcı, paylayıcı qaz kəmərlərinə, yaşayış məntəqələrində istismar edilən qurğu və məntəqələrə, daxili qaz kəmərlərinə mütəmadi baxış keçirilmiş, müvafiq təmir-bərpa işləri görülmüşdür. Ötən ay qaz xətlərində 2194 sızma aşkarlanaraq aradan qaldırılmışdır. Nəticədə, qazın təsdiq edilmiş texnoloji rejimdə nəqli təmin olunmuşdur.

Yaşayış məntəqələrində istismarda olan yararsız qaz sayğaclarının yeniləri ilə əvəz edilməsi və elektron sayğacların quraşdırılması işləri avqust ayında da davam etdirilmiş, Naxçıvan şəhərində 2632 mənzildə smartkarttipli qaz sayğacı quraşdırılmış, abonentlərə yeni qaz sayğaclarından istifadə qaydaları izah olunmuşdur. Bu məqsədlə birliyin yoxlama-nəzarət komissiyası reyd və maarifləndirici tədbirləri gücləndirmişdir.

Kadr potensialının artırılması, qaz istismarı sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqət mərkəzindədir. Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər peşəsi üzrə kurslar ötən ay da davam etdirilmiş, şəhər, rayon qaz istismarı idarələrinin bir qrup işçisi kurslara cəlb olunmuşdur.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

## dünən — Naxçıvan şəhərindəki 10 nömrəli tam orta məktəb — bu gün






## Şərur rayon Kürkənd tam orta məktəbi






*Hər il sentyabrın 15-də, Bilik Günündə nədənsə, səhər tezdən yolumu oxuduğum məktəbin önündən salıram. Təhsil aldığım bu müqəddəs məkan məni istər-istəməz özünə çəkir. Belə bir gündə məktəbin önündə toplaşan gözəl geyimli məktəbliləri, şagirdlərini səsləyib bir araya gətirən müəllimləri görəndə atamın əlindən tutub ilk dəfə məktəbin kandarından içəri girdiyimi, qırıq şüşələri olan cırıltılı qapıları, hər il tələm-tələsik rəngləndiyindən qabıq bağlamış pəncərə taxtalarını, neft qoxulu döşəməni, kiçik partalarda oturmuş, payızın ılıq nəfəsinin soyutduğu otaqlarda əllərini bir-birinə sürtüb qızınmağa çalışan sinif yoldaşlarımı xatırlayıram. Bir də soyuq qış aylarında məktəbin təsərrüfat müdiri Cabbar əminin əlindəki odun-kömürlə sinfə girməsi və deyinə-deyinə tüstüləyən sobanı qızdırmağa çalışması nədənsə, gözlərim önündən getmir. Onu da xatırlayıram ki, bir neçə il bundan öncə məktəbimiz yenidən inşa olunduğu zaman necə sevinmişdim, qanadlanmışdım. Ona görə sevinmişdim ki, bu günün uşaqları bu məktəbdə bizim dövrümüzün gətirdiyi əzab-əziyyətləri çəkməyəcək, isti, işıqlı siniflərdə oturacaq, hər cür ləvazimatlarla təmin olunan laboratoriyalardan, kabinələrdən istifadə edəcək, dövlətimizin onlar üçün yaratdığı imkanlardan yararlana biləcəklər.*

*... Bəli, bu gün yenə oxuduğum məktəbin önünə gedəcəyəm. Yenə sevinc hislərindən yaranan ovqat mənə hakim kəsiləcək. Arada bu günün şagirdlərinə həsəd apardığım üçün özümü qınadığım da olacaq. Ancaq doğru deyirlər ki, hisləri hər zaman cilovlamaq olmur. Atamın məni məktəbə gətirdiyi kimi, yenə bir atanın balaca oğlunun əlindən tutub təhsil ocağına gətirdiyini görəcəyəm. Düşünəcəyəm ki, artıq bir neçə ildir, Bilik Günündə oxuduğum məktəbin qarşısında eyni mənzərənin şahidi oluram. Valideynlər və övladlar arasındakı bu isti münasibət sarıdan ötən illər ərzində heç nə dəyişməyib. Yalnız hər il gördüyüm mənzərədə dəyişilən bir məqam var. O da 20 il bundan əvvəlki valideyn və şagirdlə bu günün valideyn və şagirdi arasındakı fərqdir. İllər öncəsinin valideyninin ən böyük qayğısı övladının təhsil şəraiti olub. Bu günün valideyninin isə belə bir qayğısı, narahatlığı yoxdur. Bu günün şagirdi güclü, qüdrətli Azərbaycanın məktəblisidir. Yaxşı şəraitdə oxuyur, yaxşı təhsil alır, valideynini və müəllimlərini sevindirir. Bu günün valideyni bir də onunla qürur duya bilər ki, övladı belə gözəl məktəbdə, ən yeni texnologiyalardan istifadə etməklə təhsil alacaq, ölkəmizin gələcəyi üçün çalışan layiqli vətəndaşa çevriləcək.*

✍ **Səbuhi HÜSEYNOV**

*Gəncliyimiz-gələcəyimiz*

## Yüksək nəticə əldə etməyimin əsas səbəbi təhsilə göstərilən qayğıdır



***Bu gün Bilik Günüdür. Minlərlərlə şagird, tələbə yeni dərs ilinə başlayacaq. Sevindirici haldır ki, muxtar respublika ötən tədris ilini uğurla başa vurdu, təhsil ocaqlarımız bir sıra nailiyyətlərə imza atdılar. Həmin təhsil müəssisələrindən biri də Naxçıvan Qızlar Liseyidir. Yaradılan şərait hesabına lisey Azərbaycanın ümumtəhsil məktəbləri sırasında qabaqcıl yerlərdən birini tutub. Bu il liseyi 31 nəfər bitirib, onların hamısı tələbə adını qazanıb. 10 nəfər isə 500-700 arası bal toplayıb. Həmin gənclərdən birini – Ayşənur Hüseynəliyevanı oxucularımızla yaxından tanış edək:***

– Mən Şahbuz rayonunun Biçənək kəndində anadan olmuşam. Orta təhsilimi Qızlar Liseyində almışam. Bu təhsil ocağının məzunu kimi qürur hissi keçirirəm. Bizim liseydə hərtərəfli şərait var. Burada elm öyrənməklə yanaşı, toxuma, tikmə, kulinariya, evdarlıq dərsləri də keçirilir. Hərtərəfli şəraitlə təmin edilmiş xalçaçılıq otağı və əmək kabinəsinin imkanlarından lazımınca istifadə olunur.

Ümumiyyətlə, liseyimizdə yüksək təlim və tərbiyə görmüş qızlar kimi yetişməyimiz üçün pedaqoji kollektiv əlindən gələni əsirgəməyib. Ən çox sevdiyim peşə müəllimlikdir. İngilis dili müəllimi olmağı daha çox arzulayırdım. İndi gənc qızların əksəriyyəti bu peşəyə yiyələnmək istəyir. Mən düşünürdüm ki, gərək çox çalışam, bu arzuma çatam. 11 ildir ki, valideynlərim də mənimlə bərabər əziyyət çəkiblər. Onlar mənə çox inanırdılar. Mən bilirdim ki, keçid balını keçəcəm. Ancaq atam məndən 600 balı keçməyimi gözləyirdi. Qarşımda məsuliyyətim çox idi. Nəhayət, həmin gün gəldi və qəbul imtahanında sualları heç bir çətinlik çəkmədən cavablandırdım. Eşidəndə ki, 661 bal toplamışam sevincimdən yerə-göyə sığmırdım. Həm valideynlərimin, həm də müəllimlərimin ümidlərini boşa çıxarmadım. Yüksək nəticə əldə etməyimin əsas səbəbi isə təhsilə göstərilən qayğıdır.

İllərlə uzaqdan həsrətlə baxdığım Naxçıvan Dövlət Universitetinin tələbəsi olmağa bir addım qalmışdı. İxtisas seçimində, ilk olaraq, həmin universitetin İngilis dili müəllimliyi ixtisasını seçdim. Artıq arzuladığım universitetin tələbəsiyəm. Bundan sonra ali təhsilimi uğurla başa vurmaq üçün daha çox çalışacağam. Qızlar Liseyinin məzunu kimi həmişə bu məktəbin adını uca tutacağam, muxtar respublikaya layiqli bir gənc kimi yetişəcəyəm.

✍ **Sara ƏZİMOVA**

## Naxçıvan güləş məktəbinin yetirməsi ikiqat dünya çempionu olub



Amerika Birləşmiş Ştatlarının Las-Veqas şəhərində 2016-cı ildə Braziliyanın Rio-de Janeyro şəhərində keçiriləcək XXXI Yay Olimpiya Oyunlarına ilk lisenziyaların qazanıldığı güləş üzrə dünya çempionatı başa çatıb. Sərbəst güləş yarışlarında ötənilki dünya və Avropa çempionu, Naxçıvan güləş məktəbinin yetirməsi Hacı Əliyev bu dəfə Las-Veqası fəth edib. 61 kiloqram çəki dərəcəsində mübarizə aparan həmyerlimiz finala qədər maneəsiz irəliləyib. Moldovadan Andrey Perpelita, Yaponiyadan Masakazu Kamoi, yarımfinalda isə bolqar Vladimir Dubov güləşçimiz qarşısında tab gətirməyib. Finalda Hacı Əliyevin rəqibi Monqolustandan Nomin Batbold olub. Rəqibinə vaxtından əvvəl qalib gələn güləşçimiz ikinci dəfə dünya çempionatının qızıl medalına yiyələnib və Azərbaycan sərbəst güləş tarixində ilk ikiqat dünya çempionu adını qazanıb.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Fərəcov Sənan Abbasqulu oğlunun adına olan 0200040642 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 704